Azərbaycan ordusu.- 2020.- 13 noyabr. S. 6.

Vətən müharibəsindən düşüncələr

# "Azərbaycan dünyaya Günəş kimi doğacaq"



*Xəyalımızda Qarabağ - Şuşa, Xankəndi, Cıdır düzü, baş-başa vermiş dağlar canlanırdı. Ruhumuz xəyalən Azərbaycan əsgərinin döyüş-döyüş azad etdiyi torpaqlardan keçərək o yerlərə yol alırdı. Dağları dolaşıb keçən yolların sağ-solunda güllələrlə, mərmilərlə yaralanmış gözəllikləri görüncə könlümüz qubarlanırdı.*

Günəşin buludların arasından süzülən şüaları dağları bürüyəndə elə biləcəyik ki, dağ molbertinə tablo çəkir; işıq və kölgənin müxtəlif təzadlarını yaradır. Dünənəcən Vətənimin başının üstünü alan qara buludları çəkirdi, indi buludları dağıdanları çəkir, o buludlara qıcanan barmaqları çəkir, torpağın yaralarını qaysaqladan döyüşlərin qəhrəmanlarını çəkir.

Azərbaycanımıza Günəş nə gözəl doğur! Azərbaycan əsgərinin qüdrətiylə nura qərq olacaq Azərbaycanımız!

Bu gün qəlbi Azərbaycanla döyünən hər kəsin ürəyi sevinclə dolur. Ürəklər döyüşçülərin döyüş əzmindən, qələbə ruhundan güc alır. Azərbaycan əsgəri Azərbaycanın dövlətçiliyi uğrunda döyüşdü, Azərbaycanın sabahları üçün döyüşdü, bu döyüşləri, döyüşlərdə qazanılan qələbələri Azərbaycanımızın dövlətçilik günəşi bilərək döyüşdü.

Vətən müharibəsi hamımızı bir amal ətrafında birləşdirdi. Bu amal Qələbə amalıydı, bu amal ölkə başçısının qətiyyətiydi, azərbaycançılığıydı. Bu amal hər birimizi Ali Baş Komandanın ətrafında daha sıx birləşdirmişdi. Bu birlik ölkə başçısının "Biz birlik güclüyük" şüarını yaratmışdı. Bu birlik özündə Böyük Qələbənin coşğusunu yaratmışdı. Bu birlik döyüşlərlə qazanılan qələbələrdən sonra işğal edilmiş ərazilərdə dalğalanan bayraqlarımızın əzəmətiydi; bu bayraqlar Qələbədən sonra Azadlıq meydanında keçiriləcək hərbi paradı gözləyir. Həmin gün bayrağımız qaliblərin əlində bənzərsizliklə dalğalanacaq. Bu dalğalanma nigaran ruhları rahatlıq tapan şəhidlərimizə Azərbaycanımızın ehtiramı olacaq.

Vətən müharibəsiydi.

Müharibə ağırdır. Ağırdan ağırdır; döyüşən əsgərlər balalarımızdı, qardaşlarımızdı, əzizlərimizdi...

Müzəffər ordumuz qələbə qazandı. Məğlub olan düşmən 20 gün ərzində Laçından, Ağdamdan, Kəlbəcərdən qoşunlarını çıxaracaq.

Döyüşlərdə qazanılan hər qələbə bizə ruh verdi, qol-qanad verdi, qanımızı coşdurdu. Bizi həsrətində olduğumuz Qayıdışa qovuşduran şanlı ordumuzun qorxubilməz döyüşçülərindən biri kapitan Abdurəhman Mancanov deyir ki, başı dumanlı dağlara, sərt qayalara baxanda, həm həyəcan, həm fərəh hissi keçirirəm, həm də ruhumu rahatlıq bürüyür. "Sonradan anladım ki, bu hisslər mənim dağlara, qayalara olan inamımdan, sevgimdən, istəyimdən qaynaqlanırmış. Mən də Vətənimin düzünü, dağını, daşını, hər qarışını çox sevirəm. Vətən üçün döyüşmək Vətən sevgisidi. Əsl vətəndaş Vətənini varlığıyla sevir, onun yolunda canından da keçməyə hazırdır.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutdu. Ordumuz bu hücumun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başlandı. Bu, Vətən müharibəsinin başlanğıcı oldu".

- Ordumuzun ruh yüksəkliyi Vətənin arzuladığı səviyyədə idi, - zabit Şahid Vəliyev belə deyir. - Qələbə ruhu qələbə deməkdir. Azərbaycan əsgəri həm yüksək döyüş hazırlığına, həm də yüksək mənəvi-psixoloji hazırlığa malk idi. Hər əsgərin torpağa böyük sevgisi var idi, indi də var.

- Düşmən məğlub olmuşdu. Məğlubiyyətini etiraf etmirdi, mülki insanları, infrastrukturu hədəfə alırdılar, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Samir Cəlilov belə deyir. - Günahsız insanların həyatına son qoyurdu. Bu, bizim illərdir dünyaya car çəkdiyimiz düşmən namərdliyinin, şərəfsizliyinin növbəti təzahürü idi. Azərbaycan əsgəri beynəlxalq təşkilatların bacarmadığını bacardı.

Azərbaycan Ordusu işğalı sonlandırdı, Azərbaycan Ordusunun böyük qələbəsi tarixləşdirildi.

Ordumuzun şəxsi heyətində böyük ruh yüksəkliyi var. Onlar bu gücü, qüvvəti ordu ilə nəfəs alan, urəkləri onlarla bir vuran xalqımızdan alırdılar.

Duruşundan bir qalibanəlik, məğrurluq duyulan əsgər Əjdər Hüseynli bildirir ki, döyüşlərdə düşməni diz çökdürən Azərbaycan Ordusunun əsgəri olmağımla fəxr edirəm. "Qaçqınlar həsrətlə, kövrəkliklə danışdıqları, xatirələrinin beşiyi olaraq bölüşdükləri doğma yurd-yuvalarımıza dönəcəklər".

İllər öncə ulu öndər Heydər Əliyev demişdi: "Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün həmin o Günəşli gündür: Azərbaycan dünyaya Günəş kimi doğur...

Bu Günəş əbədilik Günəşidi!..

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**